Respublika.- 2022.- 16 iyul. S. 9.

# Cənnətməkana çevrilən Qarabağ və Şərqi Zəngəzur



### *Bu ərazilərdə bərpa-quruculuq işləri qədimliyin və müasirliyin vəhdətində həyata keçirilir*

**Bəşər tarixində çox müharibələr olub. Bu savaşların aparıldığı ölkələrin döyüşlərdən sonra hələ uzun müddət problemlər yaşadığı tarixdən hamıya yaxşı məlumdur. Hətta keçmiş SSRİ kimi nəhəng bir dövlət İkinci Dünya müharibəsindən sonrakı çətinliklərdən asanlıqla çıxmayıb. Müstəqil Azərbaycan dövləti isə 44 günlük Vətən müharibəsindən sonra bu sahədə dünyaya nümunə göstərdi.**

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə doğma torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycanın müharibədən dərhal sonra bərpa-quruculuq işlərinə başlaması dünyanı heyrətə gətirdi. Həm də bu işləri dövlətimiz heç kimdən kömək istəmədən həyata keçirir. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi kimi: "Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük".

Məqsəd keçmiş məcburi köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytarmaqdır və bu vəzifənin yerinə yetirilməsi üçün işlər genişmiqyaslı olmaqla yanaşı, həm də çoxşaxəlidir.

Qarabağda işlər sırf planauyğun şəkildə, ciddi koordinativ formada aparılır. Prezident hələ 2020-ci ilin noyabr ayında bu məqsədlə Əlaqələndirmə Qərargahı yaradılması barədə sərəncam imzaladı. Onun nəzdində yaradılan İdarələrarası Mərkəzin işçi qrupunun üzvləri vaxtaşırı yerlərdə olur, yenidənqurma və bərpasına ehtiyac duyulan sahələrə baxış keçirir, konturları müəyyənləşdirir, konkret tədbirlərin icra qrafiklərini tərtib edirlər.

Dövlət başçısının daha bir fərmanı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılıb. Fərmana əsasən, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Xocalı, Xocavənd və Zəngilan rayonlarında yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi müvəqqəti olaraq həmin quruma həvalə edilib.

Ötən il Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalamaqla tarixi zəfərimizdən sonra bölgədə yaranan reallıqların mühüm hədəflərini dəqiq müəyyənləşdirib, konkret olaraq Qərbi və Şərqi Zəngəzur coğrafi adını siyasi leksikona daxil edib. Həmin fərmana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilk növbədə, dövlət başçısı İlham Əliyevin siyasi iradəsinin təcəssümüdür.

Böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda coşqunluq yaşanır, müxtəlif istiqamətli layihələr icra olunur. Yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su elektrik stansiyaları tikilir. Bütün layihələrin icra prosesi ilə mütəmadi olaraq yerində maraqlanan İlham Əliyev həm də reallığa çevrilən yeniliklərlə bağlı xalqı məlumatlandırır. Ümumiyyətlə, Prezidentin hər çıxışı, müsahibəsi, müşavirəsi digər sahələr kimi, işğaldan azad edilən torpaqlarımızda bərpa və quruculuq istiqamətində görülən işlərin təqdimatıdır. Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də İlham Əliyev həm reallığa çevrilən layihələrdən söz açdı, həm də hazırda həyata keçirilən proseslərin gedişatı ilə bağlı ətraflı məlumat verdi, eyni zamanda görülməsi nəzərdə tutulan işlərin əsas istiqamətlərini müəyyənləşdirdi.

Ölkə başçısının Qarabağ və Şərqi Zəngəzurda açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi obyektlərin sayına nəzər salsaq hazırda bu işlərin yüksək səviyyədə getdiyini böyük əminliklə söyləmək olar.

Prezidentin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirdiyi 5 milli prioritetin bir bəndi məhz işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış planının reallaşması prosesidir. Bu gün həmin ərazilərdə həyata keçirilən işlər deməyə əsas verir ki, 2022-ci il Azərbaycan tarixinə böyük qayıdış ili kimi düşə bilər. Çünki müşavirədə görülən işlərdən danışan Prezident xalqa müjdəli xəbər verərək bəyan etdi ki, Ağalı kəndinin sakinləri artıq bu il öz yurdlarında yerləşəcək, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına da bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulub və tam rəqəmsallaşdırılıb. Bu ərazilərdə, eləcə də 365 kilometr məsafədə ikidövrəli olmaqla 10 istiqamətdə yüksəkgərginlikli 10 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Qarabağ və Şərqi Zəngəzurda yol tikintisi də böyük əhəmiyyət kəsb edir. Bərpa-quruculuq işlərinə yeni yolların çəkilişindən başlanması təsadüfi deyil. Bunlardan biri artıq istifadəyə verilmiş "Zəfər yolu"dur. Bu, qalib Azərbaycan Ordusunun Şuşanı mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən yoldur. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101,5 kilometrlik "Zəfər yolu" Şuşa şəhərinə qədər uzanır, Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir, onlarca yaşayış məntəqəsini əhatə edir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda bir-birinə sıx calanan geniş yol-nəqliyyat şəbəkəsi yaradılır. O cümlədən Horadiz-Ağbənd, Bərdə-Ağdam dəmir yolu xətti yenidən qurulur. Bu yolların bəziləri Zəngəzur dəhlizinin tərkib hissəsidir və onların çəkilməsi nəticəsində Azərbaycanın əsas hissəsinin Naxçıvan MR və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq.

Qarabağ və Şərqi Zəngəzurda hava limanlarının tikilməsi layihəsi də uğurla reallaşdırılır. Füzuli Beynəlxalq Hava Limanı artıq istifadəyə verilib. Laçın Hava Limanının tikintisi davam edir.

Bölgədə bərpa-quruculuq işləri aparılarkən Qarabağ və Şərqi Zəngəzur ərazisində qədim dövrlərdən qorunub saxlanılan və 30 ilə yaxın işğal nəticəsində böyük ziyan görmüş Azərbaycan memarlıq irsinin bərpasına da həssaslıqla yanaşılır. İşğaldan azad edilmiş torpaqlarımızda başlayan genişmiqyaslı quruculuq və abadlıq işləri ilə yanaşı, həmin ərazilərdə ötən əsrlərdən yadigar qalan, tariximizi yaşadan və təəssüf ki, işğal dövründə düşmən tərəfindən məhv edilən, saxtalaşdırılan memarlıq abidələrimizin bərpası, memarlıq və şəhərsalma irsinin mühafizəsi bu gün qarşıda duran ən mühüm vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda memarlıq irsinin qorunub saxlanması, tarixi abidələrimizin bərpası məqsədilə müvafiq qurumlar tərəfindən iş görülür.

Onu da qeyd edək ki, memarlıq irsinin qorunub saxlanılmasına cavabdeh olan beynəlxalq təşkilatlar işğal olunmuş regionlarda mədəni irsin məhv edilməsinin dayandırılması ilə bağlı Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına məhəl qoymamış, biganəlik göstərmişdi. Təəssüf ki, bu münasibət hələ də davam etməkdədir.

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda memarlıq irsinin, ümumiyyətlə, şəhərsalma infrastrukturlarının qəsdən məhv edilməsi faktını bütün dünya öz gözləri ilə gördü. Bu ərazilərdə bütün tarixi-memarlıq abidələri dağıdılıb, şəhərlər yer üzündən silinib. Ermənilər beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq memarlıq abidələrini dağıdıb və ya "erməniləşdirmək" məqsədilə saxtalaşdırıb, tətbiqi sənət nümunələrini ölkədən kənara çıxarıb, sonradan özlərininki kimi təqdim ediblər.

Bu gün Azərbaycana ilk ayaq basan hər bir əcnəbi Qarabağa səfəri çərçivəsində azad edilmiş ərazilərlə tanış olur, həm erməni vəhşiliyini, bununla yanaşı, sürətlə davam edən bərpa-quruculuq prosesini öz gözü ilə görür, Qarabağ və Şərqi Zəngəzurun sıfırdan qurulması prosesini izləyir, qədimliyin və müasirliyin vəhdəti fonunda aparılan işlərin şahidi olur.

Beləliklə, ən qısa zamanda cənnətimiz, zinətimiz, nəğmələr gülüstanı, sevgi dastanımız, qədim və müasir Qarabağımız öz gözəlliyi ilə dünyanı heyrətə gətirəcək!..



**Zümrüd QURBANQIZI,**
**"Respublika".**